***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***

UOT 37

***Zəhra Bilal qızı Muradova***
*pedaqogika üzrə elmlər doktoru,*
*Azərbaycan Respublikası Təhsil İnstitutunun Təhsil nəzəriyyəsi və*
*tarixi şöbəsinin aparıcı elmi işçisi*

# QURUCU PREZİDENTİMİZ-AZADLIQ SƏRKƏRDƏMİZ!

***Захра Билал гызы Мурадова***
*доктор наук по педагогике,*
*ведущий научный сотрудник отдела Теории и истории образования*
*Института Образования Азербайджанской Республики*

# СОЗИДАТЕЛЬ ПРЕЗИДЕНТ - НАШ ПОЛКОВОДЕЦ СВОБОДЫ!

***Zahra Bilal Muradova***
*doctor of sciences in pedagogy,*
*leading researcher of the department Theory and history of education*
*Institute of Education of the Republic of Azerbaijan*

# OUR FOUNDER PRESIDENT - OUR WARLORD OF FREEDOM!

**Xülasə.** Məqalədə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasi fəaliyyəti öz əksini tapmışdır. Dünya arenasında Azərbaycan xalqının qürurunun, humanist və tolerantlığının sərhədlərini cızmaqla xalqımızın mərdliyini, dözümlülüyünü bir daha dünyaya nümayiş etdirdi. Torpaqlarımızı işğaldan azad etməklə Azərbaycanın Ermənistan üzərindəki hərbi qələbəsinin memarına çevrildi.
***Açar sözlər:*** *möhtəşəm qələbə, təşəbbüskar, beynəlxalq arena, müdafiə*

**Резюме.** В статье отражена успешная политическая деятельность Президента Азербайджана, верховного главнокомандующего Ильхама Алиева. Он еще раз продемонстрировал миру мужество и терпимость нашего народа, обозначив границы гордости, гуманизма и толерантности азербайджанского народа на мировой арене. Освободив наши земли от оккупации, он стал архитектором военной победы Азербайджана над Арменией.
***Ключевые слова:*** *яркая победа, инициатива, международная арена, защита*

**Summary.** The article reflects the successful political activities of the President of Azerbaijan, Supreme Commander-in-Chief Ilham Aliyev. He once again demonstrated to the world the courage and tolerance of our people, marking the boundaries of pride, humanism and tolerance of the Azerbaijani people in the world arena. Having freed our lands from occupation, he became the architect of Azerbaijan's military victory over Armenia.
***Key words:*** *bright victory, initiative, international arena, defense*

Tarixdən bilirik ki, hər bir xalqın ən ağır məqamında onun xilaskar rəhbəri və sərkərdəsi meydana çıxır və öz böyük missiyasını həyata keçirir. Amerika üçün Avraam Linkoln, Rusiya üçün Stalin, İngiltərə üçün Çörçill, Fransa üçün general De-Qoll, Çin üçün Çan Kay-Şi necə xilaskardırsa, 1993-cü ildə ulu öndər Heydər Əliyev və 2020-ci ildə Prezident İlham Əliyev həmin xilaskar vəzifələri yerinə yetirdilər.

Deyilənlərlə yanaşı bir məsələyə də diqqət yetirsək, İlham Əliyevin yuxarıda göstərdiyimiz liderlərlə müqayisədə fərqini də görərik. Möhtərəm prezidentimiz İlham Əliyev XXI əsrin yeni tipli rəhbər simasını formalaşdırdı. Əgər XX əsrin liderləri ilə onu müqayisə etsək, Stalin

həm öz xalqına, həm də düşmənə qarşı çox qəddar idi. Müharibənin qanunlarına uymayan, əsgərləri düşünməyərək odun, alovun içinə atan, şübhələri ilə sərkərdələri, ziyalıları məhv edən bir başçı olmuşdur. O birilərini götürək müharibənin gedişatında məqam axtaran, digər ölkələrə yuxarıdan aşağı baxan liderlər olmuşlar. Bu baxımdan İlham Əliyev müharibədən əvvəl siyasi platformanı tam əlinə alıb sonra müharibəni başlayan və müharibənin strategiyasını və taktikasını zərgər dəqiqliyi ilə hesablayan unikal bir lider oldu. Onu bir daha səmimi qəlbdən təbrik edirik.

2003-cü ildə hakimiyyət başına gələn İlham Əliyev ilk aylardan elə ciddi işlərdən yapışdı ki, onlar ölkənin həyatı üçün son dərəcə həlledici əhəmiyyət daşıyırdı. Prezident İlham Əliyev ilk növbədə həyatın bütün sahələrində Azərbaycanın sürətli inkişafının müəllifi, bir sıra nəhəng regional layihələrin təşəbbüskarı, Milli Ordumuzun və silahlı qüvvələrimizin yaradıcısı, xarici ölkələrdə Azərbaycanın imicini yüksəldən diplomat və siyasətçi kimi şöhrət qazandı.

Mən təhsil sahəsində uzun illər çalışan bir alim və pedaqoq kimi bu sahədə aparılan islahatları və keyfiyyətli kadr hazırlığının həyata keçirilməsini xüsusi qeyd etməyi özümə borc bilirəm. Qısaca olaraq bildirirəm ki, təhsilin inkişafı daim Prezident İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqət mərkəzində olub. Mehriban xanım Əliyevanın gərgin əməyinin nəticəsidir ki, Azərbaycan folkloru, muğamlarımız, xalq dastanlarımız ümumbəşəri mədəni irs siyahısında yer alıb. Gənclərin xaricdə təhsil almalarına lazımi şərait yaradılmasının nəticəsidir ki, indi bir çox sahələrdə müxtəlif dillərdə sərbəst danışan yüksək ixtisaslı kadrlar fəaliyyət göstərir. Onlar xarici ölkələrdə Azərbaycanın şərəfini qoruyur, ölkəmizin yüksəlişinə layiqli töhfələrini verirlər.

Hamımızın bildiyi sadə bir həqiqətdir ki, keçən on yeddi il ərzində ölkəmiz bəlkə də bir əsrə bərabər inkişaf yolu keçib. Görülən abadlıq və quruculuq işlərinin, həyata keçirilən ən müxtəlif tədbirlərin coğrafiyası o qədər genişdir ki, cildlərlə kitablara belə sığmaz. Nəticədə Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrildi, ən uzaq bölgələr inkişaf etdi və bunlarla bərabər xalqımızın sosial vəziyyəti xeyli yaxşılaşdı. Qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğan paytaxtımızda səfərdə olarkən bildirdi ki, Bakı ildən-ilə elə inkişaf edir ki, bura beş il əvvəl gələn müsafir Bakının iri addımlarla inkişafını aydın görür və etiraf edir.

Azərbaycan diplomatik sahədə böyük uğurlar qazanaraq dünyada söz sahibinə çevrildi. Ölkəmiz beynəlxalq arenada müxtəlif etnik qrupların azərbaycanlılarla dinc yanaşı yaşamaq sahəsində nümunə oldu. Dünyanın hər tərəfindən ölkəmizdə keçirilən iri miqyaslı tədbirlərə qatılan xarici ölkə nümayəndələri Azərbaycanın tolerant bir ölkə olduğunu vurğuladılar. Bütün problemlərini müvəffəqiyyətlə həll etmiş Azərbaycanın həll olunmamış bir problemi qalırdı ki, bu da təcavüzkar Ermənistan tərəfindən ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi idi.

Azərbaycan Prezidenti cənab İlham Əliyev cəlb edildiyimiz bu çətin problemin həlli ilə demək olar ki, hər gün məşğul olurdu. Prezident demək olar ki, bütün dövlətlərin başçıları ilə görüşlərində və beynəlxalq tədbirlərdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasının vacibliyindən, ancaq Ermənistanın danışıqlar prosesini hər vasitə ilə pozmağa çalışmasından, işğalçının dünyada yeni təhlükəli prezident yaratmaq meylindən danışır, beynləxalq təşkilatları işğalçını cilovlamağa çağırırdı. Bununla bərabər, Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşlərində onları öz fəaliyyətlərini canlandırmağı tövsiyə edirdi. Təəssüf ki, Dağlıq Qarabağ münaqişəsini dinc yolla həll etmək vəzifəsini üzərinə götürmüş həmsədrlər bir qayda olaraq ikili standartlardan yaxa qurtara bilmir, işğalçını öz adı ilə çağırmırdılar. Cəzasızlıqdan daha da azğınlaşan Ermənistan rəhbərləri isə bundan istifadə edərək işğalı genişləndirmək və dərinləşdirmək xətti götürdülər. İş o yerə çatdı ki, Ermənistanın baş naziri Nikol Paşinyan və müdafiə naziri David Tonoyan "yeni müharibə, yeni ərazilər" kimi sərsəm ideyalar irəli sürdülər və onu reallaşdırmağa girişdilər. Xalqımızın heysiyyatına toxunan Nikol Paşinyan Azərbaycanın qədim şəhəri olan Şuşaya gələrək orada yallı getdi və uydurma "dqr"-in "parlamentinin" Şuşaya köçürüləcəyini bəyan etdi. İyul ayında Ermənistan Tovuz ətrafında yeni təxribatlara başladı və bununla da

Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həll olunmayacağını açıq surətdə bildirdi.

Əslində bu, gözlənilməz olmadı. Prezident İlham Əliyev Ermənistanın namərd planlarına qarşı ciddi hazırlıq işləri görülməsini başa çatdırmışdı. Çıxışlarından birində Ermənistan baş nazirinə belə mesaj göndərmişdi ki, gəl təkbətək vuruşaq, görək axırı necə olacaq? Çünki Ermənistan onun-bunun hesabına yarandığı gündən indiyədək himayəçilərinin dəstəyinə arxalanıb. Yada salaq ki, I Qarabağ müharibəsində də ermənilər sovet ordusunun fəal köməyindən istifadə etmişdilər. Ancaq Azərbaycan otuz il əvvəlki zəif Azərbaycan deyildi. Bütün sahələrdə Azərbaycan Ermənistanı üstələyirdi. Hərbi sahədə isə Azərbaycan Ordusu Ermənistan ordusunu dəfələrlə üstələyirdi. Həmişə səbir və təmkin nümayiş etdirən dövlət başçımız son məqama qədər münaqişəni dinc yolla həll etməyə, qan tökülməməsinə cəhd göstərsə də Ermənistan öz davakar siyasətindən əl çəkmədi. İyirmi altı illik atəşkəs dövründə daim təxribatlar törədən Ermənistan bu il iyulun 12-də daha iri miqyaslı Tovuz təxribatı törətdi. Azərbaycan rəhbəri tam yəqin etdi ki, Ermənistan yeni ərazi iddialarındadır. Təcavüzkar dövlət işğal etdiyi torpaqların bir qarışını belə dinc yolla geri qaytarmayacaq.

Azərbaycan xalqı ayağa qalxaraq öz Prezidentinə dünyada hələ görünməmiş bir dəstək verdi. Bu həmrəyliyə xarici ölkələrdə yaşayan həmvətənlərimiz də səs verdilər. Nəhayət, sentyabrın 27-də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev qüdrətli ordumuza "İrəli!" əmri verdi. Hərbi əməliyyatların ilk günündə bölmələrimiz ildırım süräti ilə irəliləyərək Murov yüksəkliyini və bir neçə strateji nöqtəni ələ keçirdilər. Döyüşlərin dördüncü günündə artıq Azərbaycan Silahlı Qüvvələrinin şəksiz üstünlüyü göz önündə idi. Azərbaycan Ordusu Ermənistan rəhbərlərinin və generallarının lovğalıqla təriflədikləri guya alınmaz "Ohanyan müdafiə istehkamları" cəmi bir neçə gün ərzində darmadağın etdi.

Fərəhlə qeyd etmək lazımdır ki, Ali Baş Komandan İlham Əliyev bütün döyüş əməliyyatlarına şəxsən rəhbərlik edir və əməliyyatları idarə edirdi. Onu da göstərmək vacibdir ki, müasir silah-sursat, artilleriya qurğuları, zirehli texnika və müdafiə sistemləri ilə təchiz edilmiş Azərbaycan Ordusu hərb tarixinə yeni səhifələr yazdı. Cəmi 44 gün davam edən müharibədə Ermənistan silahlı qüvvələri elə sarsıdıcı zərbələr aldı ki, yəqin ən azı əlli il özünə gələ bilməz.

Təbii ki, Azərbaycanın Ermənistan üzərindəki hərbi qələbəsinin memarı Prezident İlham Əliyevdir. Çünki 17 il müddətində bu qələbənin təmin olunması üçün vacib olan bütün hazırlıqları görmüşdü.

Bu gün məmnunluqla deyə bilərik ki, ordu sərkərdəsi, Ali Baş Komandan İlham Əliyev döyüş meydanında möhtəşəm qələbə qazanmaqla bərabər informasiya cəbhəsində də öz qüdrətini göstərdi. Müharibə gedən 44 gün ərzində xarici ölkələrin mətbuat agentliklərinə və telekanallara verdiyi müsahibələrdə dövlətimizin başçısı bu cəbhədə də böyük qələbə qazandı. Gərgin döyüşlərin getdiyi 44 gündə Prezident İlham Əliyev xarici ölkələrin jurnalistlərinə otuzdan artıq geniş müsahibə verərək Azərbaycanın haqq işindən, yalnız öz sərhədləri daxilində mübarizə aparmasından, öz torpağını azad etmək məqsədindən danışıb. Şahidiyik ki, həmin jurnalistlərin bir çoxu Ermənistanın mövqeyini müdafiə edən suallar verir, dolayısı ilə Azərbaycanı ittiham etməyə çalışırdılar. Lakin Prezidentimiz tutarlı fakt və arqumentlərlə onları susdurdu. Bu cavablar tariximizdə ilk dəfə olaraq informasiya müharibəsində Azərbaycanın qələbəsini təmin etdi. Həmin cavablar hamımızın ürəyindən tikan çıxardı. Xüsusilə, ABŞ-dan, Fransadan, Rusiyadan gələn jurnalistlərin qərəzli mövqelərinin darmadağın edilməsi informasiya müharibəsində qələbəmizin rəhni oldu.

Otuz il davam edən və xalqımıza məşəqqətlər, başıaşağılıq gətirən Dağlıq Qarabağ münaqişəsi daha mövcud deyil. Bəzən səhərlər yuxudan oyananda özümüz-özümüzdən soruşuruq ki, yəni Dağlıq Qarabağ problemi doğrudanmı həll olunub? Doğrudanmı Şuşa, Laçın, Kəlbəcər, Ağdam və digər rayonlarımız erməni əsarətindən qurtarıb?

Bəli, dədə-baba torpaqlarımız otuz illik işğaldan azad edilib. Biz bu gün başımızı dik tutaraq qürur hissi keçiririk. Bu qüruru bizə dövlətimizin başçısı cənab İlham Əliyev bəxş edib.

İndi ölkəmizin qarşısında ermənilər tərəfindən vəhşicəsinə dağıdılıb yandırılmış və xarabazara çevrilmiş şəhər və kəndlərimizi dirçəltmək və abadlaşdırmaq kimi nəhəng tikinti-quruculuq işləri durur. Ancaq inanırıq ki, Azərbay-

canı cəmisi on yeddi ilə dünyaya tanıdan və özü də dünyada Böyük Qurucu kimi tanınan Prezidentimiz bu problemi lap qısa müddətdə həll edəcəkdir. Biz öz Prezidentimizin nəhəng Quruculuq missiyasına inanırıq, müharibə meydanında qanımıza susamış düşmən orduları üzərində Zəfər çalan dövlət başçımız geniş quruculuq işlərini də Zəfərlə başa çatdıracaqdır! Bütün Qələbələrin qazanılmasında Prezidentimizin arxasında bir nəfər kimi dayanan Azərbaycan xalqı bundan sonra da öz ağıllı və tədbirli rəhbərinin arxasında möhkəm dayanacaqdır. Mən bu sözlərimlə bütün Azərbaycan xalqının iradəsini ifadə edirəm.

**Problemin aktuallığı**. Azərbaycan dövlətçiliyinin, ideologiyasının təbliği, Beynəlxalq arenada siyasi mövqeyimizin dəstəklənməsi.

**Problemin elmi yeniliyi**. Azərbaycan xalqının bir amal, bir ideya ətrafında birləşərək müdafiə ehkamını təmin etmək, dahi liderin siyasi təcrübəsinin yayılması və gənclərdə vətənpərvəlik ideyalarını formalaşdırmaq.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məktəb və pedaqoji fikir tarixində vətəndaş mövqeyinin təmin edilməsi üçün etibarlı mənbə rolunu oynayır.

**Ədəbiyyat**

1. Ələddinqızı N. Azərbaycan tarixi köklərə malik və inkişafda olan müstəqil dövlətdir. Dünya mətbuatı Azərbaycan həqiqətlərini yazmaqda davam edir. Bakı, “Səs” qəzeti, 2012, 20 noyabr, s.8

2. Əliyev İ.H. Ermənistan tərəfindən aparılan təcavüzün nəticələri – (istinad tarixi: 15.08.2016), URL: www.refugees-idps- committee. gov.az/az/pages/1.html.

3. İdeologiya. URL: https://az.wikipedia.org › wiki › İdeologiya (istinad tarixi: 12.06.2019).

**E-mail:** zahra.muradova@hotmail.com

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N. Abbasov**
*ped.ü.fəls.dok., dos.* **Ə.M. Abbasov**

**Redaksiyaya daxil olub**: 01.02.2021